# MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| **Rəhbərliyin Hesabatı** | **2 - 4** |
| **Müstəqil Auditor rəyi** | **5 - 6** |
| **Mühasibat Balansı** | **7 - 8** |
| **Mənfəət və Zərər Haqqında Hesabat** | **9** |
| **Kapitalda Dəyişikliklər Haqqında Hesabat** | **10** |
| **Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat** | **11 - 12** |
| **Maliyyə Hesabatlarina dair Qeydlər** | **13 - 26** |


**Azərbaycan Respublikası**

**Bakı şəhəri–**

## Rəhbərliyin Hesabatı

**Rəhbərlik** 31 Dekabr 2022 - ci il tarixdə bitən il üzrə öz hesabatını və audit olunmuş maliyyə hesabatlarını təqdim etməkdən məmnundur.

### Əsas Fəaliyyət:

**AVRO-ASİYA İNŞAAT KORPORASİYASI «Evrascon » ASC-nin** fəaliyyəti sair ixtisaslaşdırılmış tikinti işlərinin görülməsi fəaliyyətindən ibarətdir.

**Biznes Əməliyyatlarının İcmalı və Fəaliyyətin Gələcək İnkişaf Perspektivləri:**

Müəssisənin əsas fəaliyyətindən gəliri 31 Dekabr 2022 – ci il tarixdə bitən il üzrə 141276456AZN olmuşdur. 31 Dekabr 2022 – ci il tarixə ümumi mənfəəti 2581566 AZN, il ərzində mənfəətlik dərəcəsi 1,83 % və xalis mənfəəti 2069672AZN olmuşdur. Əvvəlki ildə müvafiq göstəricilərə nəzərə salsaq - ümumu gəliri 101422891 AZN, ümumi zərəri (440079) AZN, il ərzində mənfəətlik dərəcəsi 0,00 % və xalis zərəri (930629) AZN olmuşdur. Rəhbərlik gələcək ilin nəticələri üçün nikbindir və Müəssisənin fəaliyyətini daha da təkmilləşdirmək üçün strateji planlara malikdir.

| | 2022 | 2021 |
|---|---|---|
| | (AZN-lə) | (AZN-lə) |
| Ümumi Gəlir | 141276456 | 101422891 |
| Ümumi mənfəət (zərər) | 2581566 | (440079) |
| Mənfəətlik dərəcəsi (%-lə) | 1,83 | 0,00 |
| Xalis mənfəət/ (zərər) | 2069672 | (930629) |
| Xalis mənfəət dərəcəsi (%-lə) | 1,46 | 0,00 |

Müəssisə 2022-ci ili 2069672 AZN xalis mənfəətlə başa vurmuşdur.

### Risklərin İdarə olunması və Daxili Nəzarət Sistemi:

Müəssisə davamlı inkişafın təmin olunmasına və əlavə gəlirliliyə nail olmaq üçün risklərin idarə olunmasına böyük əhəmiyyət verir. Risklərin idarə edilməsi prosesi Müəssisənin fəaliyyətinə xas olan risklərin müəyyən edilməsi, qiymətləndirməsi, onlar barədə hesabatların hazırlanması, məqbul risk limitlərinin müəyyən edilməsi vasitəsi ilə onlara nəzarət edilməsi və risklərin azaldılması prosesini özündə ehtiva edir. Əsas risklərə kredit, bazar, likvidlik və əməliyyat riskləri daxildir.

Həmçinin, rəhbərlik daxili nəzarət sisteminin mövcudluğuna və onun davamlı səmərəliliyinin yoxlanmasına cavabdehlik daşıyır. Müəssisə idarəetmə və informasiya sistemləri vasitəsi ilə davamlı olaraq riskləri nəzərdən keçirir.

## Fəaliyyətin Fasiləsizliyi:

Əlavə edilmiş maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmışdır. Hesabatları hazırlayarkən rəhbərlik tərəfindən Müəssisənin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini həyata keçirmə qabilliyyətinin mövcud olduğu qiymətləndirilmişdir. Rəhbərlik Müəssisənin fasiləsizlik prinsipinə əsasən fəalliyətini davam etdirməsinə şübhə yarada biləcək, onları hadisələrlə və vəziyyətlə bağlı qeyri-müəyyənliklərin olmasına inandıra biləcək hər hansı bir sübutla qarşılaşmamışdır.

## Kreditor borclarının ödənilməsi siyasəti:

Müəssisə təchizatçılarla razılaşdırılmış müddət və şərtlərlə borcun ödənilməsi siyasətini həyata keçirir. Siyasətin məqsədi razılaşma şərtlərinə uyğun olaraq standard ödəniş sisteminin tətbiq edilməsidir.

## Balans tarixindən sonrakı hadisələr:

Rəhbərliyin fikrincə, maliyyə ilinin sonundan maliyyə hesabatlarının hazırlandığı tarixədək olan dövrdə Müəssisəin bitmiş maliyyə ilinin əməliyyatlarına əhəmiyyətli təsir göstərə biləcək hər hansı əhəmiyyətli və qeyri-adi əməliyyat və ya hadisə baş verməmişdir.

## Torpaq, tikili və avadanlıqlar:

Torpaq, tikili və avadanlıqlar üzrə hərəkət maliyyə hesabatlarına 4 nömrəli qeydində göstərilmişdir.

## Nizamnamə Kapitalı

Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 05.11.2021-ci il tarixdə verilmiş dövlət reyestrindən çıxarışda müəssisənin nizamnamə kapitalı 377 290.00 manat təsdiq edilmişdir. ASC-yə Dövlət qeydiyyatı haqqında 1000085511 saylı VÖEN verilmişdir.

31 Dekabr 2022 – ci il tarixdə bitən il üzrə ASC-nin Nizamnamə Kapitalı 377 290.00 manat təşkil edir.

Nizamnamə kapitalında payların miqdarı aşağıdakı kimidir:

1. İsmiyev İsmayıl Əfəndi Hacımuradoviç – 51,2481% və Milli Depozit Mərkəzinin 09.08.2012-ci il tarixli reyestrində göstərilən şəxslər.

## Rəhbərliyin məsuliyyəti

Azərbaycan Respublikası Mülki qanunvericiliyi Rəhbərlikdən hər bir maliyyə ili üçün Müəssisənin ümumi vəziyyətini və maliyyə ili üçün mənfəət və zərərini düzgün və ədalətli şəkildə təqdim etmək imkanı verən maliyyə-mühasibat uçotunun aparılmasnı tələb edir.

Nəzərdən keçirilən il üzrə audit olunmuş maliyyə hesabatları mövcud qanunvericiliyinin tələblərinə uyğun olaraq hesablanmışdır. Rəhbərlik təsdiq edir ki, Müəssisənin maliyyə vəziyyətini istənilən zaman lazımi dəqiqliklə açıqlıya bilən və onların maliyyə hesabatlarının müvafiq qanunvericiliyin tələblərinə uyğun olmasını təmin edən uyğun və adekvat mühasibat müxabirləşməsinin doğruluğuna (maintenance) əhəmiyyətli dərcədə diqqət yetirilib. Rəhbərlik həmçinin təsdiq edir ki, maliyyə hesabatlarının ədalətli şəkildə əks etdirməsi və Müəssisənin maliyyə vəziyyətini və onun əməliyyatlarının nəticələrini əsaslandırılmış şəkildə təqdim edilməsi məqsədilə uyğun uçot siyasəti seçilmiş və ardıcıllıqla tətbiq edilmişdir.

**Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON"** Açıq Səhmdar Cəmiyyətinin Baş direktoru
İsmiyev Həmzət İsmayıl-Əfəndiyeviç

**AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI**

Hüseynov Şəmşinur Rəşid oğlu
Fəxri Sərbəst auditor

Qeydiyyat № SA/108. 12 sentyabr 2023-cü il tarixli İcazə
Ünvan: Bakı şəhəri, Y.Mürsəlov küçəsi ev 85.

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "Avro-Asiya İnşaat korporasiyası "Evrascon" ASC-nin rəhbərliyinə

## Rəy

Mən "Avro-Asiya İnşaat Korporasiyası "Evrascon" ASC-nin 2022-ci il üçün konsolidə edilmiş maliyyə vəziyyətinin hesabatından, məcmu gəlirlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022- cil tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli təsəvvür yaradır.

## Rəy üçün əsaslar

Mən auditi Beynəlxalq audit standartlarına uyğun aparmışam. Mən Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

## Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının IFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

## Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Auditorlar Palatasının

Fəxri sərbəst auditoru: Ş.R.Hüseynov

SƏRBƏST AUDİTOR
INDEPENDENT AUDITOR

30 noyabr 2023-cü il

02.10.2023-cü il tarixli 116 saylı müqaviləyə əsasən aparılmış auditin nəticəsinə dair auditorun yekun sənədlərinin

**TƏHVİL-QƏBUL AKTI**

**Avro-asiya İnşaat Korporasiyası**
**"Evrascon" ASC-nin** 30 noyabr 2023-cü il

Biz aşağıda imza edənlər "İcraçı" Auditorlar Palatasının sərbəst auditoru - Hüseynov Şəmşinur Rəşid oğlu bir tərəfdən və "Sifarişçi" Avro-asiya İnşaat Korporasiyası "Evrascon" ASC-nin baş direktoru – İsmiyev Həmzət Əfəndi oğlu digər tərəfdən, bu aktı ona görə tərtib edirik ki, "İcraçı" tərəfindən 02.10.2023-cü il tarixli 116 saylı müqavilənn şərtlərinə uyğun olaraq audit aparılmışdır.

Auditin nəticəsinə görə "Sifarişçi" yə auditorun yekun sənədləri təhvil verilmişdir.

| Təhvil verdi | Təhvil aldi |
|---|---|
| **İcraçı** __________ **Ş.R.Hüseynov** | **Sifarişçi** __________ **H.Ə.İsmiyev** |